# Öncə vətən var



**Hacıyev Ramid Nəriman oğlu**
**Doğulub: 11.02.1987 Cəbrayıl rayonu Mirək kəndi,**
**Şəhid olub: 18.10.2020 Tərtər, Ağdərə istiqaməti**

Hərənin bir ömür var. Hər kəs bu ömrü necə keçir, necə yaşayır, Ulu Tanrı bu ömrün dolaylarında onu hansı sınağa çəkəcək, nə kimi hadisələr, məşəqqətlər keçərək bunlar müəmma olaraq qalır. Və insan oğlu bu ömrü heç müəmma da hesab eləmir, sakit ömrünü yaşayır. Nəriman kişi də belə bir sakit ömür sürürdü, anadan olub böyüdüyü Mirək kəndində sayılıb-seçilən bir insan idi. Mənsub olduğu elin-obanın xeyrində -şərində hamıdan öncə görünərdi, üzərinə düşən qohumluq, qonşuluq missiyasını yerinə yetirərdi. Nəriman kişinin bir arzusu vardı ki, övladları Cavidi, Ramidi, Minayə və Gülarəni cəmiyyətimizin yararlı, vicdanlı üzvləri kimi yetişdirsin. Elə bu istək, bu arzu ilə həyatlarını davam etdirirdilər də. 1988-ci ildən başlayan erməni fitnə-fəsadı onun və balalarının da yerinə su caladı...

Ailənin 3-cü övladı olan Ramid 11 fevral 1987-ci ildə anadan olmuşdu. Ailənin sonbeşiyi Gülarənin 2 yaşı vardı didərginlik həyatı başlananda... Yayın istisində çöllərə tökülən ailə Bakıya üz tutdu və Xətai rayonunun Əhmədli qəsəbəsində məskunlaşdılar. Ramid 1994-cu ildə Xətai rayonundakı 249 saylı orta məktəbə daxil olub, 1998-ci ildə isə 48 saylı məktəbə gedərək 2002-ci ildə həmin məktəbin 8-ci sinfini bitirir. Hələ orta məktəbdə oxuyan Ramid sonrakı təhsil istiqamətini fikirləşmişdi. Hərbçi olacaqdı. Bunu onun vətən həsrəti ilə döyünən ürəyi və düşmən işğalı altında inləyən yaralı torpağı tələb edirdi. Ona görə də Ramid Hacıyev 2002-ciildə C.Naxçıvanski adına hərbi liseyə daxil olur. Nə qədər çətin, məsuliyyətli və əziyyətli olsa da, liseyi uğurla başa vurub, 2005-ci ildə H.Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. Ramid Ali Hərbi Məktəbi 2009-cu ildə motoatıcı ixtisası üzrə bitirərək peşəkar hərbçi ixtisası qazanır. Ramid Hacıyev hərbçi kimi fəaliyyətinə Tovuz rayonunda başlayır. 2010-cu ildən burada bir neçə hərbi hissədə motoatıcı tağım komandiri, motoatıcı bölük komandiri, 20 avqust 2016-cı ildən isə mexanikləşdirilmiş bölük komandiri vəzifəsinə yüksəlir. 17.11.2017-ci il tarixdən qəhrəmanımız "N" saylı hərbi hissədə xidmətini davam etdirərək tabor komandiri vəzifəsinə qədər yüksəlmiş, 26 iyun 2020-ci il Silahlı Qüvvələrin yaranması günü mayor rütbəsi ilə təltif edilmişdir.

Ramidin hərbi xidmət yolları Tovuz rayonunun Əlibəyli, Quşçular, Ağdam kəndlərindən Murov, Mingəçevir, Tərtər-Ağdərə dolaylarından keçir.

Bütün ömrünü, həyatını sevdiyi hərbi peşəyə sərf edən, onun incəliklərini öyrənən Ramid 2012-ci ildə Ali məktəb tələbəsi olan Sevinc Məmməd qızı ilə tanış olur və iyunun 22-də onunla ailə qurur. Bu xoşbəxt evlilikdən 2012-ci ildə onların Əli adlı oğlu, 2014-cü ildə isə Dəniz və Yağmur adlı əkiz qızları dünyaya gəlir. Balalarını dünyalar qədər sevən Ramid uşaqları ilə tez-tez görüşməsə də hər zaman fikri onlarla idi. Elə bu fikirlə də Vətən müharibəsi başlayanda "Öncə Vətən var" – deyib sentyabrın 27-də rəhbərlik etdiyi taborla birlikdə Tərtər-Ağdərə istiqamətində hücuma keçdi. Qanlı döyüşlər səngimək bilmirdi. Sentyabrın 27-də artıq Suqovuşan və Talış kəndi azad olunsa da, Ramid və onun əsgərləri arxayınlaşmırdılar. Mayor Ramid Hacıyev bütün döyüşlərin önündə gedirdi. Əsgər və zabitlərinə də tapşırmışdı, siz məndən sonra gəlin. Yəni ki, burada da bir qayğıkeşlik və sonsuz bir sevgi vardı əsgərlərinə. 3 həftə gərgin döyüşlərdə iştirak edən, misilsiz qəhrəmanlıqlar göstərən mayor Hacıyev oktaybrın 16-da yanında mərmi partlaması nəticəsində igidliklə şəhid oldu. Bir gün sonra mayor Hacıyev Ramid Nəriman oğlu İkinci Fəxri Xiyabanda torpağa tapşırıldı. Vətəni, doğma torpağını odlu bir məhəbbətlə, tükənməz istəklə sevən bir vətən oğlu da beləcə ana torpağa qovuşdu.

Dəfələrlə Ramidin atası Nəriman kişi ilə danışmışıq. Hər dəfə də bu insandakı ağıla, dərrakəyə, ağsaqqallara məxsus təmkinə heyran olmuşuq. Nəriman kişi deyir ki, bizə dedilər Ramid yaralanıb. Biz tez Tərtərə getdik. Orada isə şəhid olma xəbərini verdilər bizə. İndi Ramid təkcə mənim balam deyil, o, illər boyu yaralı torpaqlarının ağrısını çəkən bütün Azərbaycanın balasıdır. Ramid üçün vətən, torpaq, ana, bacı namusu çox önəmli idi. Bu adam elə bil ki, qeyrət üçün yaranmışdı. O deyirdi ki, "ata, biz qanımız, canımız bahasına olsa da, torpaqlarımızı azad edəcəyik". Onda böyük inam vardı. Dediyi kimi də oldu.

Ramidin anası Solmaz xanım bizimlə söhbətində oğlunu həsrətlə yada salırdı: "Oğlumu çox gec-gec görürdük"- deyir. "İşinə çox məsuliyyətli idi, ona görə də evə gəlməyə o qədər vaxt olmurdu. Balam elə körpəliyindən anasını, atasını, vətənini sevən bir övlad idi. Torpaqlarımızı itirəndən sonra onda ermənilərə qarşı tükənməz bir nifrət əmələ gəlmişdi. Sentyabrın 27-də mənə və atasına yazdı ki, "mən gedirəm, balalarım sizə əmanətdi". Sanki şəhid olacağını hiss etmişdi".

Solmaz xanım yaylığının ucu ilə nəmlənmiş gözlərini silib davam edirdi: "Oktyabrın 3-də zəng vurub sevincək dedi ki, ana, Cəbrayıl bizdədi, Prezidentimiz elan edəcək. Dedim, ana qurban, özünü, yoldaşlarını, əsgərlərini qoru. Onun arzusu idi ki, Cəbrayılda bir məscid tikdirsin. Mən Ramidimlə sağlığında da, indi də fəxr edirəm. Qürurlanıram ki, belə bir oğul dünyaya gətirmişik və o da, beləcə xalqının qəhrəman oğlu olub. Sevinirik ki, torpaqlarımız düşməndən azad edilib. Onun yoxluğu ilə barışa bilmirik. Bizə 3 gözəl balası və həyat yoldaşı əmanət qalıb. Onun qoxusunu balalarından alırıq".

Solmaz xanım danışarkən nəzərlərimiz 11 yaşlı Əlidə idi. Elə bil o da atasının xüsusiyyətləri haqqında danışmaq istəyirdi – danışdı da:

- Mənim atam dünyanın ən gözəl atasıydı. O, bizi çox sevirdi. Məni bayramlarda hərbi hissəyə aparırdı. Mən də atam kimi hərbçi olmaq istəyirdim. Mən atamla fəxr edirəm.

Ramidin həyat yoldaşı Sevinc Hacıyeva fizika müəlliməsidir. Ramidlə də elə tələbə vaxtı tanış olmuş, sonra isə evlənmişdilər. Ramiddən danışanda Sevinc xanım deyir ki, mən həmişə Allahıma şükür eləmişəm ki, Ramid kimi bir insanla rastlaşmışam. Mən başqa rayondan olduğuma görə mənim təsəvvürümdə o mənim həm həyat yoldaşım, qardaşım, böyüyüm idi. Ailəsinə dəyər verən adam idi. Həmişə çalışırdı ki, ailəsi üçün hər şeyin yaxşısı olsun. Mən fəxr edirəm ki, elə bir qəhrəmanın, qədirbilən bir insanın həyat yoldaşı olmuşam.

"Mənim qardaşım mayor Ramid Hacıyev vətənpərvər bir oğul idi. Vətənə, torpağa bağlı qardaş olub" – bu da Ramidin bacısı Minayə xanımın sözləridir. O, sözlərinə davam edərək deyir: - Qardaşım, səmimi, mehriban, gözəl qəlbli bir insan idi. Özünə hörmət qoyan, həm də hörmət qazanan idi. Heç kim onu əvəz edə bilməz mənimçün. Ürəklərdə məskən salan qardaşım. Bacın səninlə fəxr edir, ruhun şad, məkanın cənnət olsun.

Ramidin böyük qardaşı Cavid də onun haqqında heç vaxt unutmayacağı – qardaşdan da başqa, həm də vətənpərvər bir oğul kimi tanıdığını söylədi. Qardaşım çox vətənpərvər idi – deyirdi. Rayondan çıxanda məndən nisbətən uşaq olsa da, o hadisələr heç vaxt yadından çıxmırdı. Ermənilərə qarşı dəhşətli dərəcədə nifrəti vardı. Amma çox ürəyiyumşaq, humanist, istiqanlı adam idi. Bununla belə həddindən artıq igid, qorxmaz və mərd insan idi. Bir sıra döyüşlərdən uğurla, qələbə ilə çıxmışdı. Çox vətənə və torpağa bağlı idi. Şəxsən mənim üçün çox böyük fəxr idi ki, mənim balaca qardaşım Azərbaycan Ordusunun mayoru idi. Hamımız sevinirdik onun uğurlarına. Hələ mülki həyatda bir hərbçi kimi təlimlərdəki uğurları bizi sevindirirdi. Əslində bunu o özü yox, dostları bizə deyirdi. Qardaşım özü haqqında danışmağı sevmirdi. Onun anamıza verdiyi böyük bir söz vardı: "Ana, mən Qarabağımızı işğaldan azad etməyənə qədər şəhid olmayacağam". Mənim qardaşım sözünü tutdu və vətən uğrunda döyüşlərdə qalib kimi qəhrəmancasına şəhid oldu.

Ramidin hərbi işə meyli heç də havadan gəlməmişdi. Onun əmisi istefada olan polkovnik Məmməd Hacıyev, əmisi oğlu polkovnik-leytenant Fuad Hacıyev, yaxın qohumları general Yasif Nəsirlinin dövlətçilik sahəsindəki fəaliyyətləri onun üçün bir örnək idi. Ot kökü üstə bitər deyiblər. Elə bu kökkömək üstündə də Ramid Hacıyev hərbi işin bütün sirlərini öyrənmişdi.

Mayor Ramid Hacıyevin qəhrəmanlıqlarının detallarını daha aydın bilmək üçün onunla bütün döyüş və təlimlərdə bir yerdə olmuş, onun müavini kapitan Mirsadiq Zeynalovun və Ramidin rabitəçisi İbrahim Məmmədzadənin qeydlərini olduğu kimi sizlərə təqdim eləməyi məqsədəmüvafiq hesab edirik:

Kapitan Mirsadiq Zeynalov: Şəhid mayor Hacıyev Ramid Nəriman oğlu çox bacarıqlı, savadlı, vətəninə, millətinə və qanunlarına bağlı bir zabit idi. O, H.Əliyev adına Ali Hərbi Məktəbi yüksək nailiyyətlərlə başa vurmuş, bilik və bacarıqları hesabına qısa müddət ərzində mayor rütbəsinə və tabor komandiri vəzifəsinə yüksəlmişdir.- Mayor Hacıyev tabeçiliyində olanlara qarşı həm tələbkar, həm də çox qayğıkeş idi. Elə ona görə də komandanlıqda yüksək rəğbət qazanmışdı. 27 sentyabr 2020-ci ildə Vətən Müharibəsi başlayanda mayor Hacıyev çox sevinirdi. Deyirdi ki, "nəhayət doğulduğum Cəbrayıl rayonunu işğaldan azad edəcəyəm". Elə onda olan bu vətən sevgisi idi ki, onun düşmən üzərinə qorxmadan getməsinə stimul verirdi. Ramid müəllim öz taboru ilə birlikdə bir neçə döyüşdə iştirak elədi və hər birində sarsıdıcı sarsıdıcı zərbələr endirərək düşmənin çox sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi. Komandir hər döyüşə şəxsi heyətin önündə gülər üzlə, yüksək əhvalruhiyyə ilə gedirdi. O, evinə, ailəsinə, sevdiklərinə çox bağlı idi, amma vətən sevgisi bunların hamısının önündə gəlirdi.

16.10.2020-ci il səhər saatlarında Ramid yenə də öz taboru ilə Ağdərə istiqamətində hücuma keçmişdi. Yenə də onun gözlərindən sevinc tökülürdü. Çünki düşməni it kimi qovurduq. Komandir misilsiz məharətlə döyüşü idarə edir, verdiyi komandalarla düşmənə sarsıdıcı zərbələr endirirdi. Rəhbərliyində olanlar da onun ardınca inamla, qorxmadan irəliləyirdilər. Düşmən ağır itki verərək silah-sursatını, yaralıları, meyitləri döyüş meydanında qoyaraq qaçırdı. Mayor Hacıyev Ramid öz igid əsgərləri ilə müəyyən məsafədyə irəlilədikcə aramsız olaraq atılan mərmilərdən biri düz onun yanına düşdü və komandir qəhrəmancasına şəhid oldu. Döyüşlərin bitməsindən və Azərbaycan Ordusunun zəfərindən sonra mayor Hacıyevin necə bir komandir olması haqqında söhbətlər gedir, onu yeni gələn heyətə nümunə kimi göstərirlər. Azərbaycan xalqı, Azərbaycan Ordusu yaxşı bilir ki, mayor Ramid Hacıyev necə qəhrəmanlıqlar və şücaət göstərmişdir. Xalqımız və dövlətimiz Ramid Hacıyevin də xidmətlərini yüksək qiymətləndirmişdir. Onlar heç vaxt ölmürlər. Şəhidlər o vaxt ölür ki, onlar unudulurlar. Ramid Hacıyev və onun kimi vətən mücahidləri heç vaxt ölmür və unudulmurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Ramid Hacıyevin rabitəçisi İbrahim Məmmədzadə: Mayor Hacıyevlə mən çox yaxın olmuşam. Müharibə başlayan gündən şəhid olan günə - son nəfəsinə qədər onun yanında olmuşam. Çox mehriban, gülərüz, əsgərin, zabitin qayğısına qalan adam idi. Əgər bir əsgəri fikirli, qayğılı görərdisə onu tapşırıqdan azad edər, telefonunu da verərdi ki, get evinizlə danış. Ad günü olanın öz xərcinə ad gününü keçirərdi. Özü başda oturub, bizi də ətrafına yığardı. Elə eləyirdi ki, boş vaxtlarımızda da darıxmırdıq. Əsgərə heç bir cəza verməz, yalnız məzəmmət edərdi. Bax, bu xüsusiyyətlərinə görə bütün əsgər də, zabit də onu çox sevirdi.

UAZ xidməti maşına minərdi mənimlə birlikdə postlara gedərdi. Maşının arxasında daima su, siqaret olardı, onların hamısını əsgərlərə verərdi. Bir sözlə, əsgəri balası kimi əzizləyərdi. Taktiki cəhətdən çox hazırlıqlı idi. Döyüşdən qabaq bizlərə cəld taktikaları öyrədirdi.

*(Davamı 5-ci səhifədə)*



*(Əvvəli 4-cü səhifədə)*

Düşmənlə üzbəüz olarkən, hücuma keçərkən, həmlə edərkən neyləmək lazımdır. Bu döyüş taktikaları çox köməyimizə çatırdı, daha çox özü bunlardan istifadə edirdi. Döyüşün önündə gedər, fikirləşərək komanda verərdi. Hər tərəf mina olduğuna görə əraziyə ilk dəfə özü ayaq qoyardı. Ürəyi də çox yumşaq idi. Döyüş zamanı bizim tabor da şəhid, yaralı olanda başını aşağı salıb ağlayardı.

Ramid Hacıyevin son döyüşü Tərtər rayonunun Xoruzlu meşəsi deyilən ərazisi, Talış istiqamətində oldu. Həmin ərazidə cəmləşib, "kamaz"lara mindik. Talış kəndinə getdik, komandir şəxsi heyəti 2 yerə bölərək, sağ-sol elədi, Suqovuşan qəsəbəsinə keçərək, 530 deyilən bir yüksəklik var oraya irəliləyirdik. Düşmən minamyot və topları da ara vermirdi. Lakin biz 530-a çatıb düşmən səngərinə girdik. Səngərdə sağa-sola düşmənin bütün qüvvələrini məhv etdik. Komandir yenə tapşırıq verdi. Biz üçbucaq yaratdıq. Orada mayor göstəriş verərkən top mərmisi düz yanımızda partladı. Məni 20 metr kənara tulladı. Mən ayılıb komandirə sarı süründüm, çağırdım, gördüm komandir şəhid olub. Yanımızdakı o biri əsgər də qolunu və qıçlarını itirdi. Sonra o da şəhid oldu. Allah ona qəni-qəni rəhmət eləsin. Deyirdi: "mülki həyatda da səninlə yaxın, ailəvi dost olacam". Ruhu şad olsun.

Bəli, yazdıqlarımız Vətən, torpaq, azadlıq yolunda şəhid olan bir oğlumuzun ömür yoludur. Əvvəldə dediyimiz kimi Ulu Tanrının ona verdiyi ömür payını belə şərəflə, ləyaqətlə, cəsarətlə yaşayan mayor Hacıyev Ramid Nəriman oğlunun yolu.

Qəhrəmanın daha parlaq obrazını dostumuz Əli Rza Xələflinin "Salam, şəhid əsgər" şeirində bütün canlılığı ilə görürük. Əlbəttə, cəsur Vətən qəhrəmanlarına, canını Vətənə qurban vermiş hər bir şəhidimiz üçün elegiya ola biləcək bu şeirin bəndlərini, misralarını oxuduqca sanki ölməzliyə qovuşmuş Ramid Hacıyevin özünü görürük. Gələcək nəsillər üçün yaddaş ola biləcək bu şeirin ölməzlik təlqin edən ruhu Vətən müqəddəsliyindən, Vətənə qurban gedən şəhidlərin taleyindən söz açır. Bilirik ki, Qarabağın işğaldan azad olunan yerlərində məktəblər tikiləcək, bağçalar açılacaq, uşaqlar - azad torpaqda dünyaya gələn nəsillər Əli Rza Xələflinin "Salam, şəhid əsgər" şeirini qəhrəman Ramid Hacıyevin ruhuna sevgilərlə müqəddəs dualar kimi oxuyacaqlar. Nə qədər şəhid nəğmələri oxunacaqsa, qəhrəman oğullarımız da bizimlə birgə - yaddaşımızda, varlığımızda gələcəyə gedəcəklər. Vətən sinəsində boy atan uşaqların hər birinin dilindən oxunacaq bu nəğməni indidən eşidirik. Qoy oxucularımız da şəhidlərimizin ruhuna ehtiramla, sevgiylə yazılmış Əli Rza Xələflinin şeirini oxusunlar və yaddaşlarına yazsınlar. Xələflinin "Salam, şəhid əsgər" şeiri söz-söz, misra-misra varlığımızda bitəcək. Qəhrəmanın özü ilə birgə onun kimliyindən söz açacaq.

Salam, şəhid əsgər, cəsur, qəhrəman...
Qürurun yenilməz qeyrət tacıdır.
Canını vermisən Vətənə qurban,
Sənin şəhid adın şöhrət tacıdır.

Dillərdə dastansan adın, sanınla,
Şəninə min kitab yazılsa azdır.
Vətənə can verdin sən öz qanınla,
Bu allı, güllü yaz bir başqa yazdır.

Yeridi əzminlə xalqın inadı,
Qarabağ qaradan çıxdı axır ki!..
Varlığına hopan ölməz türk adı
Düşmənin başında çaxdı axır ki!..

Bu Vətən soruşsa vətəndaşından,
Hər kəs sinəsində ocaq, köz açar.
Adını yaşadan Vətən daşından,
Boylanan bir şəkil səndən söz açar.

Yaddaşa gələcək yağışla, qarla,
İzini qoruyan topağın üzü.
Yad edər son anda pıçıltılarla,
Xələfli eşqinlə yazdığı sözü.

Müəllif doğru deyir; qəhrəmanların, həm də xatirəsi xalqımızın bizdən ayrılanlara ehtiram rəmzi olan daşlarla əbədiləşir. Qranit daşların üzərinə onların şəkilləri həkk olunur. Xələfli doğru deyir, o, yəni söhbət açdığımız qəhrəman Ramid Hacıyev türk qəhrəmanlığının təcəssümü olaraq daşlara hopmuş şəklindən də bizimlə danışacaq, özünün qəhrəmanlıq yolunu əbədi yaddaş salnaməsi kimi yazıya çevirəcək. Bu yazı türkün daş üzərinə yazdığı Orxon-Yenisey abidələrinin qəhrəmanlıq ruhunu da özündə ehtiva edəcək.

Ramid hərbçi idi, döyüşçü idi. Amma o qəhrəman olacağını fikirləşmirdi bəlkə də. Yalnız bir istəyi – torpaqlarımızı azad etmək idi. Onu da etdi. Özü kimi qəhrəman və qorxmaz oğullarımızla birgə və Ali Baş Komandanımızın xeyir-duası ilə.

Hələ mühribədən əvvəl Ramid 3 hərbi medal və çoxlu fəxri fərmanlar almışdı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etməsinə, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə mayor Hacıyev Ramid Nəriman oğlu ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Məzarı II Fəxri Xiyabandadır.

***İsmayıl İMANZADƏ,***
***Tariyel ABBASLI.***